**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ MARAQLARININ MÜDAFİƏSİNDƏ MİLLİ DİASPORUN FƏALİYYƏTİ

İxtisas: 5503.02- Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Rauf Bayram oğlu Əliyev**

fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı -2022**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Oqtay Balaqadeş oğlu Sultanov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Tofiq Teyyub oğlu Mustafazadə**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Azad Əhməd oğlu Rzayev**

tarix üzrə fəlsəfə doktoru
**Taleh Vəzir oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

_______________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent

_______________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

_______________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı işlənmə dərəcəsi.** Bəşər tarixinin ayrılmaz hissəsi olan miqrasiya prosesləri bütün xalqların həyatına bu və ya digər dərəcədə təsir göstərmişdir. Qədim zamanlardan bu günümüzə kimi insanlar müxtəlif səbəblərdən ayrı-ayrı ərazilərə köç edərək məskunlaşmışdılar. Xalqların miqrasiya prosesləri müxtəlif səbəblərdən-siyasi, iqtisadi, sosial və başqa amillərin təsirindən baş verirdi. Belə ki, işğalçılıq müharibələri, siyasi təqiblər və yaxud iqtisadi, sosial problemlər insanların miqrasiyasına səbəb olmuşdur.

Əhalinin miqrasiya prosesləri bu gün də həm məcburi, həm də könüllü şəkildə davam edir. Müasir dövrdə dünyada gedən qloballaşma prosesləri beynəlxalq miqrasiyaları daha da sürətləndirmiş və bunun nəticəsində əksər dövlətlərin digər ölkələrdə diasporları formalaşmışdır.

Bu gün beynəlxalq münasibətlərin subyektlərindən biri olan diasporlar həm ölkələrin daxili siyasətinə, həm də xarici siyasət məsələlərinə fəal şəkildə müdaxilə edir. Diasporların təsiri özünü beynəlxalq təşkilatlar üzərində də büruzə verir. Bu gün dövlətlər milli maraqların təmin olunmasında, ölkənin təbliğində, dövlətlərarası münasibətlərin inkişafında diasporların köməyindən istifadə edirlər. Beləliklə, siyasi sistemin mühüm subyektlərindən olan diasporların aktiv fəaliyyəti tədqiqat obyekti kimi onların əhəmiyyətini artırır. Eyni zamanda Azərbaycan diasporunun mövcudluğu faktı bizim üçün problemi daha da aktual edir.

Azərbaycanda "diaspor" anlayışı haqqında ilkin təsəvvürlər son dövrdə yaranmağa başlasa da, qeyd etmək lazımdır ki, soydaşlarımızın dünyanın müxtəlif ölkələrində məskunlaşması prosesi hələ bir neçə əsr əvvəl başlanmışdır. Digər xalqlarla müqayisədə azərbaycanlıların doğma torpağa daha sıx bağlılığı üzündən Vətəni tərk edib qürbətdə yaşamaları etnik-mənəvi baxımdan daha ağrılı olmuşdur [1]

SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycanla xaricdə

---

[1] Azərbaycan diasporu: böyük yolun başlanğıcı / Buraxılışa məsul: N. İbrahimov. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin nəşri. – Bakı: Çaşıoğlu, - 2006. - 208 s.

yaşayan azərbaycanlılar arasında əlaqələr məlum səbəblərdən zəif olmuşdur və ya heç olmamışdır. Azərbaycan diasporunun təşkilatlanması ideyası və bu işdə əməli addımlar məhs ümummilli liderimiz Heydər Əliyevə məxsusdur. Bilavasitə onun təşəbbüsü ilə 1973-cü ilin avqustun 28-də Azərbaycan KP MK bürosu Xaricdə Yaşayan Həmvətənlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində vətəndən kənarda soydaşlarımızla əlaqə şöbəsinin yaradılması haqqında qərar qəbul edir[2]. Bu tarixi qərardan sonra xaricdə yaşayan həmvətənlərimizlə sıx əlaqələrin qurulması istiqamətində xeyli işlər görüldü. Heydər Əliyevin siyasi uzaqgörənliyinin bir nəticəsi də xaricdə yaşayan həmvətənlərimizlə əlaqələrin daha da genişlənməsi üçün "Vətən" cəmiyyətinin yaradılması oldu. 1975-ci ilin oktyabrın 5-də keçirilən Azərbaycan KP MK bürosu Xaricdə Yaşayan Həmvətənlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında məsələ müzakirə edərək bu əhəmiyyətli işin ideoloji təşkilati texniki cəhətlərini müəyyənləşdirmişdi

SSRİ-nin dağılması ilə Azərbaycan dövləti quruldu və dövlət səviyyəsində diaspor məsələsi ilə bağlı mühüm tədbirlər görülməyə başlandı.

1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ilk növbədə ölkədə ictimai-siyasi sabitliyə, Ermənistanın işğalçılıq siyasətinə qarşı milli birliyə nail olmağı əsas vəzifə kimi qoydu. Ümummilli lider Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək müasir dövrdə hər bir dövlətin qüdrətini yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçüldüyünü qeyd edirdi. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də

[2] Постановление БЮРО центрального комитета компартии Азербайджана. О создании при Азербайджанском обществе дружбы и культурной связи с зарубежными странами отдела по связами с соотечественнами за рубежом // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond № 1, siyahı № 60, iş № 59, pr. № 73, & 25, vərəq - 280-286.

Azərbaycan hakimiyyəti son 20 ildə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

Diasporun xarici siyasət istiqamətindəki töhvəsi özünü 2020-ci il Tovuz döyüşləri zamanında, eyni zamanda 2020-ci il 27 sentyabrda başlayan Azərbaycanın haqq savaşı - 44 günlük Vətən müharibəsində göstərmiş oldu. Vətən müharibəsi başlandığı andan dünya erməni lobbisinə tutarlı cavab verən milli diaspor təşkilatlarımız dövlətimizin haqq səsini dünyaya çatdırılmasında müstəsna xidmətləri olmuşdur. Dünya ictimayyətinə ərazi bütövlüyümüzü bərpa etmək üçün haqq savaşı apardığımızı, ermənilərin işğalçılıq siyasətini ifşa etməkdə dünya azərbaycanlıları birlik nümayiş etdirmişdir. Diasporumuz Ermənistanın Tovuz təxribatı zamanı daha da möhkəmləndi və torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsi dövründə özünün indiyə qədər ki, ən yüksək zirvəsinə çatmışdır. Bütün bunlarda diapor quruculuğunun nə qərər önəmli və vacib olduğunu göstərməklə bərabər son illərdə Azərbaycan Respublikasının diaspor ilə bağlı siyasətinin önəmini təsdiq etmişdir. Diasporun Azərbaycanın xarici siyasətindəki rolu və əhəmiyyəti bizim üçün problemi daha da aktual edir.

Beləliklə, bu günümüzə qədər uzun bir tarixi zamanda azərbaycanlıların mühacirətinin səbəblərini araşdırmaq, diasporun inkişafına təsir göstərən amilləri müəyyənləşdirmək, Azərbaycan diasporunun fəaliyyətini, diaspor və ana vətən arasında mövcud olmuş qarşılıqlı münasibətləri tədqiq etmək, diasporun mövcud durumunu və müstəqil Azərbaycan dövlətinin diaspor siyasətini təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Problemin aktuallığını şərtləndirən başlıca səbəbləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Müasir dövrdə miqrasiya proseslərinin sürətlənməsi diasporların yaranması ilə nəticələnir. Diasporların ictimai-siyasi həyatda oynadığı rol onların nəzəri cəhətdən öyrənilməsini zəruri edir;
- Azərbaycan diasporunun formalaşmasına təsir göstərən amillərin tədqiqi;
- Dövlətin diaspor quruculuğu istiqamətindəki fəaliyyəti;
- Azərbaycanın mənafelərinin və milli maraqlarının qorunmasında diasporun fəaliyyəti;
- Azərbaycan Respublikası dünya azərbaycanlılarının birliyini milli mənafelər və dövləti maraqlar kontekstində ortaya çıxan təbii tarixi zərurət kimi qiymətləndirir;
- Dünya azərbaycanlılarının birliyi məsələsi-Azərbaycançılıq ideologiyasının reallaşdırılması mexanizmi kimi qəbul edilir və bu sahədə həyata keçirilən bütün tədbirlər məhz həmin amala əsaslanır. Başqa sözlə desək, bu ideya dünya azərbaycanlılarının birliyinin fəlsəfi-nəzəri əsasları kimi çıxış edir;
- Azərbaycan dövləti dünya azərbaycanlılarının birliyini, mövcud iqtisadi və siyasi gerçəklikləri, eyni zamanda dünyada gedən ictimai-siyasi proseslərin meydana çıxardığı reallıqları nəzərə alaraq həyata keçirməyə çalışır;
- Dünyada azərbaycanlıların həmrəyliyi bütün Azərbaycan xalqının ideoloji bütövlüyünü, milli birliyini təmin edən əsas amildir və dövlət siyasətinin prinsipial istiqamətlərindən biridir;
- Azərbaycan dövləti bütün dünyada yaşayan azərbaycanlıların siyasi istinadgahı kimi çıxış edir və hər zaman onların qarşılaşdığı çətinliklərin həllində yaxından iştirak etməyi özünün ali məqsədlərindən biri kimi dəyərləndiri;
- Azərbaycan lobbisinin yaradılması və lobbiçilik fəaliyyəti;
- Azərbaycan-Türk diasporunun birgə fəaliyyəti və bu fəaliyyəti zəruri edən amillər;
- Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında milli diasporun fəaliyyəti, bu istiqamətdə “Xocalıya Ədalət” kompaniyasının əhəmiyyətini, fəaliyyətini hərtərəfli

öyrənmək;

- Azərbaycan diasporunun mövcud vəziyyətinin təhlili.

Mövzu Azərbaycanı təcavüzə məruz qalan bir ölkə kimi dünya birliyinə tanıtmaqda diasporun rolunu müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. Erməni təcavüzünün beynəlxalq miqyasda ifşa edilməsində milli diasporun xidmətlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, erməni təcavüzünün ifşa və dəf edilməsi, ərazi bütövlüyünün təmin edilməsi Azərbaycanın siyasi maraqlarının əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycan diasporunun fəaliyyətinin və apırılan işlərin mərkəzində erməni təcavüzünün mahiyyətini açıqlamaq, bu təcavüzlə bağlı dünya birliyi və beynəlxalq təşkilatların ədalətli mövqeyinə nail olmaq durur. Fikrimizcə, bu istiqamətdə Azərbaycan diasporunun fəaliyyətinin dərindən araşdırılması, görülən işlərin siyasi-tarixi əhəmiyyətinin müəyyənləşdirilməsinə kömək edə bilər.

Azərbaycanın müstəqilliyinə qədərki dövrdə Azərbaycan diaspor tarixi tədqiqat obyekti olmamışdır. Diaspor problemi son dövrlərdə tədqiqata cəlb olunsa da kifayət qədər öyrənilməmişdir. Azərbaycanda bu mövzu SSRİ-nin süqutundan sonra tədqiq olunmağa başlanılmışdır. Dövlət müstəqilliyinin bərpa olunması ilə beynəlxalq münasibətlər sisteminə daxil olan Azərbaycan dövləti diaspor fəaliyyətini ölkənin milli maraqlarına təsir edən ciddi faktor kimi dəyərləndirərək diaspor quruculuğunu xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul etdi.

Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılmasında, erməni təcavüzkarlığına qarşı mübarizədə xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması və bir sözlə diasporun fəaliyyətinin aktuallığı nəzərə alınaraq AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində diaspora quruculuğu tarixinin tədqiqi ilə məşğul olan şöbə yaradıldı. Xaricdəki Azərbaycan Diaspor Təşkilatlarının fəaliyyətinin vahid mərkəzdə koordinasiyası üçün ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin yaradıldı. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması problemlə əlaqədar tədqiqatlar üçün yeni perespektivlər açdı. Azərbaycan Respublikasının siyasi maraqlarının müdafiəsində milli diasporun fəaliyyəti problemi kompleks şəkildə, tam təfərrüatı ilə

indiyə qədər tədqiq edilməmişdir. Lakin problemin müəyyən tərəfləri bəzi tədqiqatçılar tərəfindən araşdırılmış, bu məsələyə dair bir sıra monoqrafiyalar, kitablar, məqalələr yazılmışdır. Tədqiqatımızla əlaqədar həmin əsərlər öyrənilmiş və təhlil olunmuşdur. Mövzunun araşdırılması prosesində mənbələrin müxtəlifliyini nəzərə alaraq problemlə bağlı tarixi əsərlər aşağıdakı kimi qruplaşdırılmışdır.

Burada birinci qrup Azərbaycan tarixşünaslığına aid əsərlər daxildir. Dissertasiya işində tədqiqat obyekti olaraq seçilmiş mövzunun müəyyən aspektləri akademik R.Mehdiyev, Ə.Həsənov, V.Həbiboğlun, Y.Mahmudov, M.Seyidbəyli, V.Arzumanlı və başqa alimlər tərəfindən tədqiq edilmişdir.[3]

Akademik R.Mehdiyevin əsərində dünya azərbaycanlıları ilə əlaqələrin inkişaf etdirilməsini, onların Azərbaycan dövləti ətrafında sıx birləşdirilməsini dövlət siyasətinin mühüm tərkib hissələrindən olduğunu qeyd edir və bu işdə azərbaycançılıq ideologiyasının bütün elementlərinin dərindən mənimsənilməsini zəruri şərt hesab edir[4]. Əsərdə başlıca olaraq Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycançılıq ideologiyasının dünya

---

[3] Arzumanlı, V. Tarix siyasətin – siyasət tarixin dili ilə / V.Arzumanlı. - Bakı: Qartal, - 1999. - 442 s. Arzumanlı, V. Dünya Azərbaycanlıları Konqresi. Dünən, bu gün və sabah / V.Arzumanlı, İ.Ağayev – Bakı: Qartal, - 2007. - 188 s. Arzumanlı, V. Azərbaycan diasporu (reallıqlar, qayğılar, problemlər) / V.Arzumanlı. – Bakı: Qartal, - 2001. – 800 s.
Həbiboğlu, V. Azərbaycan diasporu yeni mərhələdə / V.Həbiboğlu. – Bakı: Elm, - 2006. - 264 s. Həbiboğlu, V. H.Əliyev və Azərbaycan diasporu / V.Həbiboğlu. - Bakı: Qartal, - 2006. 358 s. Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti / Ə.Həsənov. - Bakı: Elm, - 2005. 751 s. Həsənov Ə. Azərbaycanın geosiyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, - 2015. - 1056 s. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, - 2016. 700 s. Mehdiyev, R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. - Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, - 2001. 276 s. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə (məqalələr, çıxışlar, müsahibələr): [2 cilddə] / R.Mehdiyev. - Bakı: XXI əsr YNE, - 2006. 671 s. Mahmudov, Y. Azərbaycan dövlətçiliyinin xilaskarı / Y.Mahmudov. – Bakı: Altay, - 1998. - 44 s. Mahmudov, Y Azərbaycan tarixində Heyydər Əliyev şəxsiyyəti / Y.Mahmudov. – Bakı: Təhsil, - 2002. - 328 s.
[4] Mehdiyev, R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. - Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, - 2001. - 276 s.

azərbaycanlılarını vahid amal ətrafında birləşdirən konsepsiyaya çevrildiyini qeyd etmişdir. Müəllif vurğulamışdır ki, Dağlıq Qarabağ probleminin həllinə dair səylər fəallaşdırılmalı, xarici siyasətdə ölkənin mənafeyi daim lobbiçilik, diaspor quruculuğu və milli maraqlar ətrafında birləşdirilməlidir. Çünki, ölkələrin xarici siyasətinin uğurla həyata keçirilməsində lobbi və diaspor amilinin rolu böyükdür.

Ə.Həsənov əsərlərində xarici ölkələrdə yaşayan azərbaycanlıları dövlətin demoqrafik resursları sırasına aid edir və bu qəbildən olan azərbaycanlıların ölkənin həm daxili, həm də qlobal inkişafında, onun sabit və təhlükəsiz yaşayışında, problemin həllində real qüvvə kimi çıxış edə biləcəyini vurğulayır[5]. Müəllifin əsərlərində baçlıca olaraq xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, qondarma Dağlıq Qarabağ probleminin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması, yaşadıqları ölkələrin siyasətinə milli maraqlar müstəvisində təsir gücünə malik diasporun formalaşdırılmasının vacibliyi və digər problemlər təhlil edilmişdir. Eyni zamanda burada Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik maraqlarının təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsasları şərh edilir, ölkənin xarici və milli siyasət konsepsiyasının hazırlanması, milli maraqlarının çərçivəsinin müəyyənləşməsi və təmin edilməsi kimi çoxsaylı siyasi məsələlər obyektiv şəkildə təhlil edilir.

Akademik Y.Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", "Azərbaycan dövlətçiliyinin xilaskarı" adlı əsərlərində irəli sürülən elmi mülahizələrə Azərbaycanın dövlətçilik tarixi fonunda nəzər salınmış, Heydər Əliyev tövsiyələrinin kontekstində təhlil olunmuşdur[6] Bu əsərlər Azərbaycanın dövlətçilik tarixində dəyərli əsərlərdir.

V.Həbiboğlunun tədqiqat əsərlərində problemin fəlsəfi aspektləri dərindən tədqiq edilmişdir. Müəllifin qeyd etdiyimiz əsərlərində ümummili lider Heydər Əliyevin və Prezident İlham

---

[5] Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti / Ə.Həsənov. - Bakı: Elm, - 2005. - 751 s.

[6] Mahmudov, Y. Azərbaycan dövlətçiliyinin xilaskarı / Y.Mahmudov. – Bakı: Altay, 1998. - 44 s. Mahmudov, Y. Azərbaycan tarixində Heyydər Əliyev şəxsiyyəti / Y.Mahmudov. – Bakı: Təhsil, - 2002. - 328 s.

Əliyevin diaspor quruculuğu siyasəti işıqlandırılmış, Azərbaycan diasporunun problemlərinə toxunulmuş, Azərbaycan dövlətinin diaspor quruculuğu siyasəti ilə bağlı dəyərli fikirləri öz əksini tapmışdır.

V.Arzumanlının əsərlərində Azərbaycan diasporunun miqrasiya səbəbləri, formalaşması, fəaliyyəti, strukturu, Ümummilli lider Heydər Əliyevin diasporla bağlı siyasəti, lobbiçilik və s məsələlər tədqiqata cəlb edilmiş və bu sahədəki mövcud problemlər şərh edilmişdir. Lakin müəllif Azərbaycan diasporunun fəaliyyətini Azərbaycanın xarici siyasət müstəvisində təhlil etməmişdir.

Mövzu ilə bağlı O.Sultanov, A.Hüseynov, İ.Agayev, İ.Hüseynova əsərlərində ötən əsrin 80-90 cı illərində Azərbaycanın ictimai-siyasi həyatı ilə yanaşı dünya azərbaycanlılarının təşkilatlanması tarixinə də toxunulmuşdur. Eyni zamanda A.Tahirli, Z.Əliyev, İ.İsmayılov, R.Məmmədov, X.İbrahimli, S.Xəlilov, G.Novruzova, S.Həziyeva və digər tədqiqatçıların əsərləri kifayət qədər maraq doğurur.[7]

İ.İsmayılovun əsəri Azərbaycan diasporunun tarixini öyrənmək

---

[7] Sultanov, O. XX əsrin 80-cı illərinin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Monoqrafiya / O.Sultanov. – Bakı: Elm və təhsil, - 2010. – 288 s. Hüseynova, İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. – Bakı: Təhsil, - 2004. – 472 s. Tahirli, A. Azərbaycan mühacirəti /A.Tahirli. - Bakı: Tural-Ə, - 2001. - 344 s. Əliyev, Z. Beynəlxalq münasibətlərdə diasporların rolu / Z.Əliyev. – Bakı: Nurlan, - 2001. – 150 s. Əliyev, Z. Dünya diasporları (nəzəriyyə və təcrübə) / Z.Əliyev. – Bakı: Qismət, - 2005. - 454 s. Əliyev, Z. Diaspor izahlı sözlük, məlumat kitabı / Z.Əliyev. - Bakı: Yurd, - 2007. - 376 s. Əliyev, Z. Türkdilli xalqların diasporları / Z.Əliyev. – Bakı: Adiloğlu, - 2009. - 300 s. İsmayılov, İ. Dünya azərbaycanlıları XX əsrdə / İ.İsmayılov. - Bakı: DHA Mətbəsi, - 1997. - 270 s. Məmmədov, R. Rusiya: ziyalılarımız, mətbuatımız, münasibətlərimi / R.Məmmədov. – Bakı: Şirvannəşr, - 2003. - 105 s. Məmmədov, R. Səfərnamə / R.Məmmədov. – Bakı: Şirvannəşr,- 2001. - 348 s. Məmmədov, R. Bakıdan Moskvaya və uzaqlara / R.Məmmədov. – Bakı: Şirvannəşr, - 2000. - 479 s. İbrahimli, X. Azərbaycan siyasi mühacirəti (1920-1991) / X.İbrahimli. – Bakı: Elm,- 1996. - 304 s. Xəlilov, S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi /S.Xəlilov. - Bakı: Azərbaycan Universiteti, - 2002. - 232 s. Həziyeva, S. Dünya azərbaycanlılarının həmrəyliyi tarixi (XX əsrin sonu, XXI əsrin əvvəlləri) / S.Həziyeva. – Bakı: Adiloğlu, - 2010. - 168 s. Novruzova, G. Rusiya Federasiyasında Azərbaycan Diasporu: Tarixi-demoqrafiya problemləri. 1989-2002 / Tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / - Bakı, 2010. – 29 s.

baxımından olduqca dəyərlidir. Burada Cənubi Azərbaycanın, Azərbaycanın siyasi mühacirətinin XX əsr, Dünya azərbaycanlılarının XXI əsrin astanasındakı tarixi sistemli şəkildə işıqlandırılmışdır. Müəllif əsərdə Cənubi Azərbaycandan mühacirət hallarına daha geniş yer vermişdir.

X.İbrahimlinin "Azərbaycanın siyasi mühacirəti (1920-1991)" əsəri 1920-ci il aprel istilası ilə başlanan Azərbaycan mühacirətinin yeni mərhələsinə həsr edilib. Əsərdə Azərbaycanın yenidən öz müstəqilliyinə qovuşmasında siyasi mühacirlərin gördüyü işlərin məzmun və əhəmiyyətinə aydınlıq gətirilmiş, həmçinin mühacirətin xüsusiyyətləri, onun ideoloji-siyasi tarixi təhlil edilmişdir.

S.Xəlilovun "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" adlı əsəri Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında formalaşan azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji əsaslarına həsr olunmuşdur.

G.Novruzovanın "Rusiya Federasiyasında Azərbaycan diasporu: tarixi-demoqrafiya problemləri" adlı dissertasiyasında azərbaycanlıların Rusiyaya miqrasiyası, onların rus cəmiyyətinin sosial strukturunda yeri, demoqrafik göstəriciləri, əsas məşğuliyyəti, Azərbaycan diasporunun Rusiyanın sosial-iqtisadi və mədəni həyatında iştirakı kimi məsələlər araşdırılmışdır.

Z.Əliyevin "Dünya Diasporları" əsərində Azərbaycan diasporunun tarixi ilə bağlı maraqlı nəzəriyyə və faktlara rast gəlinir. Müəllif bu sahədəki beynəlxalq təcrübəyə əsaslanaraq, azərbaycançılıq ideologiyası və ideoloji birliyin möhkəmləndirilməsi problemlərinə dair məntiqli mülahizələr irəli sürmüşdür.

S.Həziyevanın "Dünya azərbaycanlılarının həmrəyliyi tarixi" (XX əsrin sonu, XXI əsrin əvvəlləri) adlı dissertasiyasında XX əsrin sonu XXI əsrin əvvəllərində xaricdə yaşayan azərbaycanlılarla həmrəylik hərəkatı sahəsində dövlət siyasəti, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində diasporun fəaliyyəti tədqiq olunmuşdur. Tədqiqatçının ardıcıl araşdırmaları və təhlilləri, xüsusilə müqayisəli araşdırmaları əhəmiyyətli sayıla bilər. Lakin bu monaqrafiyada da Azərbaycan diasporunun fəaliyyəti Azərbaycanın xarici siyasəti kontekstində təhlil olunmamışdır.

Tarixşünaslığın qısa xülasəsindən aydın olur ki, problemin

müxtəlif aspektləri işıqlandırılsa da Azərbaycan Respublikasının siyasi maraqlarının müdafiəsində milli diasporun fəaliyyəti kompleks-sistemli şəkildə tədqiq olunmamışdır. Qeyd etdiyimiz əsərlərdə diaspor quruculuğunda baş verən keyfiyyət dəyişiklikləri, Azərbaycan lobbisinin yaradılması perespektivləri, Azərbaycanın siyasi maraqlarının qorunmasında Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti, Xocalı soyqırımının tanıdılması yolları tədqiq olunmadığından problemin aktuallığını daha da artırmışdır.

Tədqiq olunan dissertasiya problemə kompleks yanaşma, elmi dövriyyəyə ilk dəfə cəlb olunan faktlar baxımından fərqlidir. Azərbaycan dövlətinin diaspor siyasətinə dair elmi tədqiqat işlərinin az olması nəzərə alınaraq dissertasiyada bu sahəyə xüsusi diqqət yetirilmişdir.

İkinci qrupa Türkiyə və Qərb tarixşünaslığına aid edilən əsərlər daxildir. Xarici ölkə müəlliflərinin əsərləri problemin tədqiqi istiqamətinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir. Bu əsərlər Azərbaycanla bağlı olmasalar da diasporun nəzəri aspektləri, diasporun yaranması, lobbiçilik fəaliyyəti və.s bağlı olduqca əhəmiyyətlidir. Diaspor probleminin öyrənilməsində, lobbiçiliyin təşkilində və fəaliyyət istiqamətləri sahəsində Türkiyə tarixşünaslığında son dövrlərdə müəyyən elmi tədqiqatlar aparılmışdır. A.Təyyar, N.Uslun və digərləri əsərlərində diaspor, lobbizim anlayışları, xarici siyasətin önəmli tərkib hissəsi kimi şərh edilmişdir[8].

Qərb tədqiqatçılarından A.Brah, O.Valbek, K.Alfonso, E.Nobibawm, W.Safran, S.Lavie və digər tədqiqatçıların əsərlərində diaspor institutu və onun inkişaf mərhələləri, dinamikası və digər məsələlər müxtəlif aspektdən araşdırılmışdır.[9]

---

[8] Uslu, N. Türk dış politikası yol ayrımında: Soğuk savaş sonrasında yeni sorumlar, yeni imkanlar və yeni arayışlar. I basım / N.Uslu. - İstanbul: Ankara yayınları, - 2006, - 375 s. Tayyar, A. Amerikanın siyasal yapısı. Lobiler ve dış politika. Üçüncü basım /A.Tayyar. - İstanbul: Alfa Basım Yayım Dağıtım, - 2000. – 311 s.

[9] Avtar, B. Cartographies of Diaspora: Contesting İdentities / B.Avtar. - New York: Routledge, - 1996. - 276 pp. Lavie, S. Displacement diaspora and geographies of identity / S.Lavie, T.Swedney - London: Durham, - 1996. – 296 pp. Nobibawm, E. The invention of tradition / E.Nobibawn, J.Ranger - Cambridge: Cambridge Univ. Press, - 1983. – 254 pp. Osten, W. The Concept of Diaspora as an analytical tool in the study of refugee communities// Journal of Ethnic and Migration Studies, -

Üçüncü qrupa rus müəlliflərinin əsərləri daxildir. Rus tədqiqatçılarından A.E.Binetski, A.Neşadin, M.Malyutin, A.B.Malkon, T.Polskova, V.Dyatlov əsərlərində problemin müxtəlif aspektlərinə toxunulmuşdur[10].

A.E.Binetskinin əsərində müxtəlif milli diasporların fəaliyyətlərinin öz dövlətlərinin siyasətinə təsir gücünün əvəzsiz səviyyəsi barədə fikirləri bu baxımdan əhəmiyyətlidir.

T.Polskova diaspor mövzusunu ilk öyrənən tədqiqatçılardan sayılır. Müəllif əsərində diaspor nəzəriyyəsini sosial və siyasi tərəfdən araşdırmış, eyni zamanda dünyanın ən güclü diasporlarından hesab edilən İsrail, Çin diasporlarını, fəaliyyət təcrübəsini öyrənib təhlil etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi Azərbaycanın siyasi maraqlarının müdafiə olunmasında milli diasporun fəaliyyəti seçilmişdir. Azərbaycan diasporunun təşəkkül tapması və formalaşması, coğrafiyası, milli maraqların müdafiə olunmasını şərtləndirən amillər, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında diasporun rolu, dövlətin diaspor quruculuğu siyasəti,lobbiçilik fəaliyyəti, xaricdə yaşayan həmvətənlərin hüquqlarının qorunması, deportasiya olunmuş azərbaycanlıların haqqlarının qorunmasında diasporun birgə fəaliyyəti tədqiqatın əsas predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan diasporunun Azərbaycan Respublikasının siyasi maraqlarının qorunmasında fəaliyyətini dəyərləndirmək, diasporun təşkilatlanması və onların fəaliyyətində dövlətin rolunu müəyyənləşdirmək, Azərbaycan dövlətinin siyasət strategiyasının həyata keçirilməsində dövlət-diaspor münasibətlərinin inkişaf

---

2002. №28, - p. 221. Safran, W. Diasporas in modern societies. Myths of homeland and return // Diaspora, - 1991. №1, - p. 83-84.

[10] Бинецкий, А. Лоббизм в современном мире / а.Бинецкий. - Москва, ТЕИС, - 2004. - 247с. Дятлов, В. Диаспора: попытка определится в понятиях // Диаспоры, 1999. №1, - с. 23-31.

Малютин, М. Нещадин, А. Лоббизм – всего лишь средство обогащения // Известия. - 1994, 16 ноябр. – с. 5. Полоскова, Т. Современные диаспоры: внутриполитические и международные аспекты // Т.Полоскова. - Москва: Научная книга, 1999. - 252 с.

perspektivlərini tədqiq etməkdir. Bununla əlaqədar tədqiqatın qarşısında duran vəzifələr aşağıdakılardan ibarətdir:

- Azərbaycan diasporunun təşəkkülü və formalaşma tarixinin mərhələlərni elmi təhlillər əsasında dövrləşdirmək, diasporun inkişaf mərhələlərinə təsir edən amilləri aşkara çıxarmaq;
- Azərbaycan dövləti və diaspor münasibətlərini qiymətləndirmək, diaspor quruculuğu siyasətini təhlil etmək;
- Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporun təsir imkanlarını və bu istiqamətdə görülən işləri işıqlandırmaq;
- Xocalı soyqırımının dünyaya tanıdılmasında Azərbaycan diaspounun fəaliyyətini qiymətləndirmək;
- Azərbaycan diasporunun lobbiçilik imkanlarını tədqiq etmək, fəaliyyətini araşdırmaq və bu sahədə ola biləcək boşluqları təhlil etmək;
- Azərbaycan diaspor təşkilatlarının türk diaspor təşkilatları ilə birgə fəaliyyət strategiyasını dəyərləndirmək və əməkdaşlığın perspektivlərini müəyyənləşdirmək;
- Yəhudi diaspor təşkilatları ilə qarşılıqlı əməkdaşlıq istiqamətlərini nəzərdən keçirmək və lobbiçilik təcrübəsini öyrənmək;
- Ermənistan ərazisindən deportasiya olunan soydaşlarımızın hüquqlarının müdafiəsində diaspor təşkilatlarının fəaliyyətini araşdırmaq və bu sahədə olan çatışmamazlıqları təhlil etmək, eyni zamanda Azərbaycan və erməni diasporunun problemə münasibətini müqayisəli təhlil etmək;
- xaricdə yaşayan azərbaycanlıların haqqlarının qorunmasında diaspor təşkilatlarının fəaliyyət istiqamətlərini tədqiq etmək;
- Ayrı- ayrı problemlər üzrə diasporun iştirak səviyyəsini aydınlaşdırmaq, düşmən qüvvələrin fəaliyyət istiqamətləri üzrə müqayisəli təhlillər aparmaqla zəif fəaliyyət göstərilən sahələr üzrə işin təkmilləşdirilməsinin zəruriliyini üzə çıxarmaq.

**Tədqiqat metodları** əsasını analiz, sintez, ümumiləşdirmə metodları, tarixilik və müqayisəli təhlil prinsipləri təşkil edir. Belə ki, tədqiqat işi yazılan zaman hadisələr analiz edilmiş, nəticələr çıxarılmışdır. Araşdırma zamanı müqayisəli təhlil metoduna geniş

yer verilmişdir.

Azərbaycan Respublikasının siyasi maraqları müəyyən edilmiş, milli diasporun bu istiqamətdə fəaliyyəti ətraflı şəkildə öyrənilmiş və təhlil edilmişdir.

Hadisələrin analizi zamanı mövzu ilə bağlı Azərbaycan, türk, rus, ingilis dillərində olan kitablardan və mənbələrdən istifadə edilmiş, müxtəlif müəlliflərin fikirlərinə münasibət bildirilmiş və müəllifin öz fikirləri verilmişdir.

Dissertasiya işi yazılarkən bütün bunlarla yanaşı problem-xronoloji metodundan da istifadə edilmişdir. Mövzu araşdırılarkən müxtəlif dillərdə (Azərbaycan, türk, rus, ingilis) olan ədəbiyyat və mənbələrdən istifadə edilən zaman onlara tənqidi yanaşmnalar da olmuşdur. Hər fəslin sonunda ümumiləşdirmələr aparılmışdır.

Milli diasporun Azərbaycanın siyasi maraqlarının müdafiəsi istiqamətindəki fəaliyyəti təhlil edilmiş, nəticələr çıxarılmış və təkliflər irəli sürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəlar.**

- Azərbaycan Respublikasının siyasi sahədə əsas milli maraqları beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya təşkil edir;
- Dünya azərbaycanlılarının həmrəyliyi və diaspor quruculuğu dövlət siyasətinin əsas fəaliyyət istiqamətidir;
- İşğalçı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı soydaşlarımızın öz tarixi yurdlarından deportasiyası ilə nəticələnmişdir;
- Dağlıq Qarabağ münaqişəsini həlli Azərbaycan Respublikasının önəmli siyasi kursu olmaqla birlikdə, milli diasporun başlıca fəaliyyət istiqamətinə çevrilmişdir;
- Erməni diasporu Azərbaycanın informasiya boşluğundan yetərincə istifadə etməklə dünya ictimaiyyətində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yanlış təsəvvürlər formalaşdırmışdır;
- Milli diasporun fəaliyyətinin əsasını Ermənistanın Azərbaycana qarşı işğalçılığının mahiyyətini siyasi gündəmdə saxlamaqdır;

- Xocalı soyqırımının dünya dövlətləri və beynəlxalq təşkilatlarda tanıdılması üçün səylərin gücləndirilməsi;
- Azərbaycan- Türkiyə diaspor təşkilatlarının ortaq milli maraqların müdafiəsində birgə fəaliyyət strategiyasının işlənməsi;
- Lobbiçilik fəaliyyətinin nəticəsi olaraq ondan artıq dövlətin parlamentində, iyirmidən çox Amerika Ştatlarında Xocalı soyqırımı rəsmən tanınmışdır;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə problemin qoyuluşu ilə müəyyən edilir və aşağıdakı müddəalarda əks olunur:

- Azərbaycan diasporunun formalaşmasına təsir göstərən amillər təhlil edilmiş, səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Azərbaycan lobbisinin yaranması və onun dövlətin xarici siyasəti ilə uzlaşdırılması prinsipləri müəyyənləşdirilmişdir;
- Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, bu istiqamətdə "Xocalıya ədalət" kampaniyasının əhəmiyyəti, Xocalı soyqırımını tanıyan dövlətlərin və ABŞ-ın mövqeyi Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq kompleks şəkildə öyrənilmiş və "Xocalıya ədalət" kampaniyasının fəaliyyəti hərtərəfli təhlil edilmişdir;
- Azərbaycan diasporunun Yəhudi diasporu ilə əməkdaşlığını zəruri edən amillər araşdırılmış, mövcud əməkdaşlığı vacib edən səbəblər göstərilmiş;
- Azərbaycan- Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası təhlil edilmiş bu istiqamətdə görülən tədbirlər işıqlandırılmış, bir sıra təkliflər irəli sürülmüşdür;
- Ilk dəfə olaraq problemlə əlaqədar olaraq müxtəlif arxiv sənədləri (Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, Azərbaycan Respublikası Dövlət Arxivinin), mötəbər mənbələr (Ümummili lideri Heydər Əliyevin irsi, Azərbaycan Respublikasının Prezidentini İ. Əliyevin xarici ölkələrdə yaşayan azərbaycanlılarla görüşlərindəki nitq və çıxışlarından, fərman və sərəncamlarından, Azərbaycan hökümətinin qərarları) tədqiqata cəlb olunmuşdur;

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin xronoloji çərçivəsi XX əsrin sonu XXI əsrin əvvəllərini əhatə edir. (1988- 2015-ci illər) Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərində Sovet imperiyasının dağılması və Azərbaycanın öz istiqlalına qovuşması kimi xarekterizə etmək olar. Dissertasiya işi qeyd etdiyimiz xronoloji çərçivəyə uyğun olmaqla elmi-praktik əhəmiyyəti ondan ibarətdir ki, diaspor probleminin kompleks halında öyrənilməsi, Azərbaycan diasporunun mövcud vəziyyəti, bu sahədə mövcud problemlər geniş şəkildə təhlil edilmişdir. Bu səbəbdən də dissertasiya mövzu üzrə mövcud olan boşluqların müəyyən qədər doldurulmasına imkan yaradır. Dünya azərbaycanlılarının azərbaycançılıq ideologiyası ətrafinda birləşməsində, beynəlxalq münasibətlər sistemində, diasporun dövlətin xarici siyasətində önəmi ilə bağlı dissertasiyada əks olunmuş müddəalardan elmi tədqiqat işləri, ümumiləşdirici əsərlər yazılması zamanı istifadə edilə bilinər. Eyni zamanda tədqiqat işi maarifləndirici və təbligat vasitəsi kimi də əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllifin Azərbaycan Respublikası Ali Attestasiya Komisiyasının tövsiyyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, həmçinin ölkənin elm ocaqlarında təşkil olunmuş elmi-nəzəri və elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır. Dissertasiyanın məzmunu ilə bağlı Azərbaycan, Türkiyə və Ukraynada çap edilmiş elmi nəşrlərdə, həmçinin qeyd edilən dövlətlərdə təşkil edilmiş elmi-nəzəri və elmi-praktik konfranslarda ümumilikdə 16 məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Türk və Şərqi Avropa xalqları tarixi və tatixin tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Giriş, üç fəsil, səkkiz yarımfəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 257431 (ədəbiyyat siyahısı və əlavələr istisna olunmaqla) işarədən ibarətdir. Giriş: işarə sayı – 21516, I fəsi: işarə sayı – 115490, II fəsil: işarə sayı – 81174, III fəsil: işarə sayı – 50190, nəticə: işarə sayı – 12165.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

*Giriş*də mövzunun aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi və praktik əhəmiyyəti verilmişdir.

Dissertasiyanın *"Ermənistanin Azərbaycana qarşı təcavüzkar siyasətinin beynəlxalq miqyasda ifşasinda Azərbaycan diasporu ümummilli güc mənbəyi kimi"* adlı I fəsil dörd yarımfəsildən ibarətdir.. Bu fəslin *"Azərbaycan diasporunun ümummilli maraqların müdafiəsi uğrunda mübarizəni şərtləndirən amillər"* adlanan birinci yarımfəslində Azərbaycanın milli maraqları müəyyən edilmiş, geniş faktik materiallar əsasında diasporun təşəkkülü, diasporun formalaşmasında diaspor-dövlət əlaqələri, Azərbaycan diasporunun ümummilli maraqların müdafiəsi uğrunda mübarizəsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə diasporun iştirakı və.s məsələlər tədqiq olunmuşdur.

Həmin fəsildə Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında göstərilir ki, milli maraqlar "Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmivyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur" [11].

Azərbaycan Respublikasının milli maraq çərçivəsi, milli təhlükəsizliyinin bu gün üçün ən əsas problemi və hərbi-geostrateji vəzifəsi illərdir uzanan və hələ ki sonu görünməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək, regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir[12].

Azərbaycanın milli maraq çərçivəsinə həmçinin: Ermənistanın işğalçılıq siyasətinin doğurduğu nəticələrin aradan qaldırılması,

---

[11] Məmmədov, N. Geosiyasətə giriş: Müasir geosiyasi proseslər: [2 cilddə] / N.Məmmədov. – Bakı: Qanun, c.1. -2011. - 416 s.

[12] Həsənov, Ə. Azərbaycanın geosiyasəti / Ə.Həsənov. Bakı: Zərdabi LTD, - 2015. – 1056 s.

yurdundan didərgin salınmış qaçqın və məcburi köçkünlərin geri qaytarılması və əzəli torpağında məskunlaşdırılması; dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi və azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. təxirəsalınmaz vəzifələr daxildir[13].

Azərbaycan Respublikası Milli Məclisinin 2004-cü il 29 iyun tarixində qəbul etdiyi qanuna əsasən Azərbaycan Respublikasının siyasi sahədə əsas milli maraqları aşağıdakılardır:

- dünya azərbaycanlılarının həmrəyliyi;
- xaricdə yaşayan həmvətənlərimizin hüquqlarının müdafiəsi;
- Azərbaycan dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya;
- Beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması[14]

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm daxili ehtiyatlarından, həm də xarici siyasət vasitələrindən (siyasi, iqtisadi, hərbi, təbliğat, informasiya və s.) istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspor qurumlarının imkanları daxildir. Bu vasitələr Azərbaycan dövlətinin milli maraq və təhlükəsizliyinin təmin olunmasında, dünya birliyindəki nüfuzunu yüksəltməsində, özünə çoxsaylı tərəfdarlar qazanmasında və onlarla qarşılıqlı faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyətə malikdir[15].

1996-cı il dekabr ayının 28-də ümummilli lider Heydər Əliyev

---

[13] Həsənov, Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, - 2016.- 700 s.

[14] Azərbaycan Respublikası Milli Məclisinin 712 2Q saylı Qanunu (Bakı: 29 iyun 2004-cü il) // Azərbaycan Respublikasının Milli Məclisinin Arxivi, Fond № 2941, Siyahı № 1, İş №1188, vərəq 93-98.

[15] Həsənov, Ə. Azərbaycanın geosiyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, - 2015. - 1056 s

dünya azərbaycanlılarına müraciət edərək onlara bir daha azərbaycançılıq ideyaları uğrunda birliyə, tarixi vətənin maraqlarının müdadfiəsi işində fəal iştirak etməyə çağırmışdır. Heydər Əliyev soydaşlarımızı Azərbaycan dövlətinin maraqlarını inamla müdafiə etməyə çağırır, müstəqil respublikamızın tarixi maraqlarının qorunması işini bütün dünya azərbaycanlılarının borcu kimi səciyyələndirirdi[16].

Birinci fəslin ikinci yarımfəsli *"Azərbaycan diasporunun coğrafiyası və strukturu"* adlanır. Bu fəsildə azərbaycanlıların məskunlaşma coğrafiyası, azərbaycanlıların mühacirətinin çoxəsrlik tarixi, mühacirətin mərhələləri və səbəbləri müəyyənləşdirilmişdir, konkret və faktiki materiallar əsasında azərbaycanlıların miqrasiya tarixini xronoloji ardıcıllıqla vermiş, miqrasiyanın səbəbləri eyni zamanda ayrı-ayrı dövlətlərin ərazisində məskunlaşma tarixini və coğrafiyası tədqiq edilmişdir. Azərbaycanlıların miqrasiya tarixi Azərbaycanda Ərəb Xilafəti hakimiyyəti dövründən başlayaraq X əsrə qədərki birinci, X əsrdən XIX əsrə qədərki ikinci, Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə əlaqədar XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədərki üçüncü, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü əhatə edən dördüncü, totalitar kommunist diktaturası illərindəki beşinci və nəhayət SSRİ-nin iflasından sonrakı altıncı xronoloji mərhələləri ehtiva edir.

Birinci fəslin üçüncü yarımfəsli *"Azərbaycan diasporunun formalaşması və təşəkkülü prosesi"* həsr olunmuşdur. Xalqımızın bütün tarixi boyu milli birlik və həmrəylik arzuları ilə yaşamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra dövlət siyasətində bu məsələ ilə bağlı mühüm tədbirlər görülməyə başladı və bir sıra qərarlar qəbul edildi. Lakin Ermənistanın Azərbaycana təcavüzü, ölkə daxilində olan qeyri-sabit vəziyyət, bu məsələlərin həllinə maneçilik törədirdi. 70 il ərzində vətəndən ayrı düşmüş diaspor nümayəndələrinin həm öz təşkilatlanmalarında, həm də vətənlə münasibətlərində kifayət qədər problem var idi və bu onların fəaliyyətinə mənfi təsir göstərirdi. Eyni zamanda yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasında da bu məsələ ilə bağlı

---

[16] Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir. [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, c. 8. – 1998. - 488 s.

konsepsiya yox idi. Xaricdə yaşayan azərbaycanlıların arasında həmrəylik yaratmaq, təşkilati işlərini tənzimləmək və canlandırmaq, onların həm Azərbaycan Respublikası ilə, həm də öz aralarında əlaqələrini möhkəmləndirmək üçün dövlət siyasətində güclü işlərin aparılması tələb olunurdu. Qeyd etdiyimiz kimi, diaspor quruculuğu Azərbaycanda müstəqilliyin ilk illərindən aktuallıq kəsb etməyə başlasa da, bu vəzifənin yerinə yetirilməsinə dövlət tərəfindən xüsusi diqqət göstərilməsi məhs ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçı olduğunu rəsmən bəyan etmiş və xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparmağa başlamışdır. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra Azərbaycan diasporuna dövlət qayğısı artdı və bu istiqamətdə mühüm işlər görülməyə başlandı. Milli birlik və həmrəylik zamanın, müasir dövrün tələbi idi. Bu gerçəkliyi düzgün qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycanın daxili, istərsə də xarici siyasət xəttində milli birliyə, həmrəyliyə olduqca mühüm əhəmiyyət verirdi. 1993-1994-cü ildən sonra Azərbaycanda diaspor mövzusunun prioritet mövqeyə çevrilmişdir. Artıq ABŞ, Fransa, Almaniya, Rusiya, Belçika, Böyük Britaniya, Skandinaviya ölkələri və digər bölgələrdə yaşayan azərbaycanlılar təşkilatlanma prosesinə fəal olaraq qoşularaq ölkənin xarici siyasi kursunun həyata keçirilməsində müəyyən rol oynamağa çalışırdılar. Təşkilati struktura malik olan birliklərin yaranması zərurəti ortaya çıxdı.

Dünya azərbaycanlılarının birləşdirilməsi Heydər Əliyevin müəllifi olduğu Milli birlik konsepsiyasına əsaslanırdı. Bu konsepsiyanın uğurla həyata keçirilməsi nəticəsində ümummilli liderimizin böyük fədakarlıqlar bahasına qurduğu Azərbaycan dövləti bütün dünya azərbaycanlılarının tarixi və siyasi istinadgahına, dayaq nöqtəsinə çevrilmişdir.

Məlumdur ki, diaspor daxilində birləşmə hər hansı ideya ətrafında baş verir. Azərbaycan diasporunda bu rolu "Azərbaycançılıq" ideyası oynamağa başladı. Ümummilli lider H.Əliyev Azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası kimi "dövlətçilik ənənələri, dövlətçilik psixologiyası və dövlətçilik

praktikasının vəhdəti" kimi bütün azərbaycanlılarda şəxsi mənafeyi Vətən, Dövlət mənafeyi prizmasından keçirməyi, milli-mənəvi dəyərləri qoruyub saxlamağı və inkişaf etdirməyi tələb etdiyini göstərdi.

*"Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə diasporun iştirakı"* adlanan birinci fəslin dördüncü yarımfəslində ermənilərin Azərbaycan torpaqlarına o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsi kimi qiymətləndirilmişdir. Məlumdur ki, bölgənin strateji mövqeyinin və regionda söz sahibi olmaq istəyən xarici dövlətlərin fəal rol oynamalarının burada ciddi təsiri vardır. Məkrli siyasətə xidmət edən ermənilər və ermənipərəst qüvvələr regionda baş verənləri beynəlxalq ictimaiyyətə insan haqları adı altında, həqiqətdən uzaq şəkildə təqdim etmişlər. Dünya ictimaiyyətinin fikrini baş verənlərin əsl mahiyyətindən yayındırmışlar.

Birmənalı şəkildə demək olar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın müstəqilliyinə alternativ olaraq onu öz təsir dairəsində saxlamaq istəyən dövlətlərin mürtəce qüvvələrinin yaratdığı problemin hərtərəfli və kompleks şəkildə həllinin vacibliyini göstərdi. Bunu uzaqgörənliklə dərk edən Heydər Əliyev Ermənistan təcavüzünün dəf edilməsinin, respublikanın pozulmuş ərazi bütövlüyünün bərpa olunmasının və işğalçıların ölkə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Ona görə də Azərbaycan hökuməti bütün gücünü müstəqil dövlətin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və respublikanın ərazi bütövlüyü prinsipinə uyğun olaraq problemin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurəti ilə qarşılaşdı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi göstərdi ki, bu məsələnin həlli yalnız beynəlxalq rəyi nəzərə almaqla, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmaqla, eləcə də səmərəli, gərgin və hərtərəfli düşünülmüş

diplomatik iş aparmaqla mümkündür[17].

Erməni təcavüzünün ifşasında Azərbaycan Respublikasının həyata keçirdiyi diplomatik missiya uğurlu nəticələr əldə etmişdir ki, bu işdə dünya azərbaycanlılarının rolu danılmazdır. Ümumiyyətlə, beynəlxalq ictimai rəyin Azərbaycan həqiqətlərinə uyğun formalaşdırılması Azərbaycanın xarici siyasətinin uğurlarının mühüm amil kimi qiymətləndirilməlidir. Eyni zamanda bu proseslərdə ölkə əhalisinin ictimai rəyi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə qeyd etmək lazımdır ki, məhz Ümummilli lider Heydər Əliyev Azərbaycanın xarici siyasətinin uğurları üçün təkcə ölkə əhalisi deyil, dünya azərbaycanlılarını da bu prinsipial məqsədə - Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının qorunması işinə cəlb edə bilmişdir.

Dissertasiyanın ikinci fəsli *"Azərbaycan diaspor təşkilatlarının lobbi quruculuğu siyasəti və əsas hədəfləri"* adlanır. Bu fəsildə Azərbaycan diaspor təsisatlarında təşkilatlanma işinin sürətləndirilməsindən, diaspor təşkilatları arasında əməkdaşlığın səviyyəsindən, Azərbaycan lobbisinin formalaşması və fəaliyyətinin başlıca istiqamətləri, erməni diasporunun Azərbaycana qarşı çirkin fəaliyyətinin ifşasından bəhs olunur.

İkinci fəslin birinci yarımfəsli *"Azərbaycan lobbisinin fəaliyyətinin başlıca istiqamətləri"* adlanır. Azərbaycan lobbisinin fəaliyyətinin başlıca istiqamətlərini aşağıdakı kimi götürə bilərik:

1. İlk növbə olaraq Dağlıq Qarabağ probleminin gündəmdə saxlamaq, Ermənistanın terrorçu dövlət olması və BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinin dərhal icra edilməsinə çalışmaq və bunun üçün Qarabağ həqiqətlərindən bəhs edən dosyeləri hazırlanaraq beynəlxalq ictimaiyyətə yaymaq;

2. Xocalı soyqırımı, 20 Yanvar faciəsi və 1918-ci ildə 31 mart – Azərbaycan xalqına ermənilər tərəfindən törədilən soyqırımların beynəlxalq status almasına nail olmaq. Bu istiqamətdə piket etiraz çıxışları, məktub kompaniyaları, anma günləri, sərgilər təşkil etmək, KİV orqanlarında çıxışlar etmək, rəsmi dövlət səviyyəsində bu günlərin dünya ölkələrində davamlı keçirmək;

---

[17] Həsənov, Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // -Bakı: Dirçəliş-XXI əsr, - 2003. №63, - s. 39-54.

3. Azərbaycanın neft strategiyasının dəstəklənməsi və bu istiqamətdə görüşlər keçirmək, tədbirlər təşkil etmək, jurnal və bülletenlər, kitablar çap etdirmək. Təbliğat kompaniyası aparmaq və müxtəlif səpkili görüşlər həyata keçirtmək.

Diasporanın lobbiçilik fəaliyyətinin uğurlu olması bir sıra amillərlə şərtlənir. 1. Birlik və həmrəylik; 2. Yüksək səviyyədə təşkilatlanma; 3. Məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakçılıq və dövlət vəzifələrində müxtəlif vəzifələrə yiyələnmək; 4. Seçki prosesinə təsir etmək gücünə malik olmaq; 5. Güclü maliyyə imkanlarının olması; 6. KİV orqanları üzərində nəzarət və s. kimi səciyyələndirmişik.

Xocalı soyqırımının beynəlxalq miqyasda tanınmasına nail olmaq istiqamətində Heydər Əliyev Fondu da sistemli tədbirlər həyata keçirir. Bu istiqamətdə Fondun reallaşdırdığı bir sıra önəmli layihələr Azərbaycan diaspor təşkilatlarının da öz təbliğat işini daha effektiv formada qurmasına imkan yaradır. 2007-ci ildə Heydər Əliyev Fondu Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar xarici ölkələrdəki Azərbaycan icma və birliklərini məlumat və sənədlərlə təmin etmişdir. Fondun əsas məqsədi Almaniya, Fransa, İsveçrə, Belçika, Çexiya, Macarıstan, Rumıniya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdə Xocalı soyqırımının növbəti ildönümünün lazımi səviyyədə qeyd olunmasına və faciənin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasına nail olmaqdır. Bununla əlaqədar, Almaniyadakı Avropa Azərbaycanlıları Konqresi, Belçikadakı Benilüks Azərbaycanlıları Konqresi, Fransadakı Azərbaycan-Fransa Gənclər Assosiasiyası, İsveçrə Krallığındakı İsveçrə Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, Çexiyadakı "Azəri-Çex" cəmiyyəti, Rumıniyadaki Rumıniya Azərbaycanlı Gənclər və Mədəniyyət Assosiasiyası Heydər Əliyev Fondunun təşkil etdiyi tədbirlərdə fəal iştirak etmişlər[18].

"Xocalıya ədalət" kompaniyası 2008-ci ildə irəli sürülüb və İslam Konfransı Gənclər Forumu ( İKGF) tərəfindən həyata keçirilir.

---

[18] Xocalı soyqırımının16-ci ildönümü ilə əlaqədar tədbirlər planının icrası haqqında Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin məlumatı: URL: http://www.diaspora.az

İlk dövrlərdə adı " Xocalıya ədalət, Qarabağa azadlıq" olub[19]. 2008-ci ilin mayın 8-dən İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun (İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə təsis edilmiş, fəaliyyətinə 2009-cu ilin fevralında start verilmiş və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən "Xocalıya ədalət" beynəlxalq informasiya və təşviqat kompaniyası da bu işə öz töhvəsini verməkdədir. Bu kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı faciəsi ilə bağlı məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır[20].

Leyla Əliyevanın Xocalı soyqırımının daha geniş miqyasda qeyd olunması təşəbbüsü bir sıra ölkələrdə dövlət səviyyəsində dəstəklənmişdir.

2010-cu il yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKTPİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə "İKGF ilə İKTPİ arasında əməkdaşlıq haqqında" qətnamə imzalanmışdır. "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində qəbul olunmuş qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Qətnamədə "Xocalıya ədalət" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapmışdır. Bu, beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir[21].

Azərbaycan həqiqətlərinin təbliği məqsədilə ötən müddət ərzində Avropa ölkələrində müxtəlif tədbirlər həyata keçirilmişdir. Qeyd olunan faktlar göstərir ki, Azərbaycan diaspor təşkilatlarının bu istiqamətdəki fəaliyyəti getdikcə güclənir. Bununla belə, fikrimizcə,

---

[19] Səmədov, V. Xocalıya Ədalət (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model): [3 cilddə] / V.Səmədov, R.Vəlizadə, L.Əliyeva. - Bakı: 2014. - 344 s.

[20] "Xocalıya ədalət" kompaniyasının yeni mərhələsi başlanmışdır // Respublika. - 2010, 27 fevral. - s. 3.

[21] www.khojaly.org

daha ciddi nəticələr əldə etmək üçün diaspor təşkilatlarının fəaliyyətinin ardıcıllığı və sistemliliyi təmin olunmalıdır. Qətliama obyektiv qiymət verilməsi təşəbbüsləri dünyanın sülhpərvər qüvvələri, demokratik ölkələri tərəfindən birmənalı dəstəklənmişdir.

Bunun nəticəsi olaraq Meksika, Pakistan, Bosniya və Herseqovina, Çexiya Respublikası, Panama, İordaniya, Kolumbiya, Peru, Sudan, Honduras Respublikası, Qvatemala kimi ölkələr Xocalı soyqırımını öz parlamentlərində müzakirə etmiş, bunu soyqırım kimi rəsmən tanımışlar. Amerika Birləşmiş Ştatlarının 20-yə qədər ştatı da (Massaçusets ştatı, Texas, Nyu- Cersi, Corciya, Men ştatı, Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahama, Tennessi, Pensilvaniya, Qərbi Vircinia, Konnecticut, Florida, İndiana ştatı, Arizona, Yuta ştatı) Xocalı soyqırımını rəsmən tanımışlar[22]. Digər ölkələrdə isə bu soyqırım aktı müzakirə olunmaqda və yaxın tarixlərdə silsilə ardıcıllıqla bir sıra ölkələrdə yaşayan milli diasporalarımızın da fəallığı sonucu Xocalı soyqırımı rəsmən tanınacaqdır. Bütün bu görülən işlərdən sonra tam qətiyyətlə deyə bilərik ki, milli diasporamız artıq dünyada öz sözünü cəsarətlə deyən bir gücdür.

İkinci fəslin ikinci yarımfəslində *"Azərbaycan-Türkiyə diaspor təşkilatlarının ortaq milli maraqların müdafiəsində birgə fəaliyyəti"* tədqiq edilmişdir. Türk dünyasının iki böyük şəxsiyyətinin–ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri kədərimizdir" və ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamları qarşılıqlı əlaqələrimizin dərin tarixi köklərini ifadə edərək siyasi, iqtisadi və mədəni əməkdaşlığımızın təməl prinsiplərini müəyyənləşdirmişdir.

İki ölkə arasında münasibətlərin indiki səviyyəsi Azərbaycan və Türk diasporlarının əlaqələrinin möhkəmlənməsi üçün etibarlı zəmin yaratmışdır. Azərbaycan və Türk icmaları bu zəminə əsaslanaraq bir sıra ölkələrdə birgə tədbirlər təşkil etmiş, çağdaş dünyanın reallıqları diasporlarımız arasında əlaqələrin bütün istiqamətlərdə inkişafına zəmin yaratmaq, bu əməkdaşlığın sistemli, ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin etmək üçün vahid bir konsepsiyanın hazırlanması zərurətini ortaya

---

[22] www.mfa.gov.az

çıxarmışdır.

*"Azərbaycan diaspor təşkilatlarının xaricdə yaşayan azərbaycanlıların vətəndaş hüquqlarının təminatı sahəsində fəaliyyəti"* adlanan üçüncü fəslin birinci yarımfəsli *"Azərbaycan diasporunun Ermənistandan didərgin salınan soydaşlarımızın hüquqlarının müdafiəsi uğrunda mübarizəsi"* adlanır. Bu yarımfəsildə Ermənistandan didərgin salınan soydaşlarımızın hüquqlarının müdafiəsi uğrunda fəaliyyətindən bəhs edilir. Ermənistan dövlətinin etnik separatizm və şovinizmə əsaslanan siyasəti nəticəsində yaranan münaqişə və problemlər MDB məkanında və Azərbaycanda kəskin siyasi, iqtisadi və sosial problemləri şərtləndirmişdi. Statistikaya görə hazırda dünyada öz ölkəsi daxilində məcburi köçkün düşən 25 milyon insan mövcuddur. Onun bir milyonu ölkəmizdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsi nəticəsində qaçqın düşən insanlardır. Azərbaycan diaspor təşkilatlarının bu sahəyə xüsusi diqqət yetirilmədiyini bu sahədəki boşluqlar vurğulanmışdır, eyni zamanda bu istiqamətdə olan çatışmamazlıqlar qeyd edilərək erməni diaspor təşkilatları ilə müqayisələr aparılmışdır. Belə ki, erməni diaspor təşkilatları yüksək maliyyə yardımları hesabına Azərbaycanın işğal edilmiş ərazilərində ermənilərin məskunlaşdırılması üçün xüsusi kompaniya və cəmiyyətlər yaratmışlar[23].

Üçüncü fəslin ikinci yarımfəsli *"Xaricdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi diaspor təşkilatlarının vacib fəaliyyət istiqamətidir"* adlandırmaqla bu yarımfəslində xaricdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsində diaspor təşkilatlarının fəaliyyət istiqamətlərindən bəhs edilir. Xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi və cəmiyyətə inteqrasiyası Azərbaycan diasporunun gündəmində duran əsas məsələlərdən biridir. Dünyanın bir çox ölkələrindəki diaspor təşkilatlarımız soydaşlarımızın yaşadığı cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakını təmin etməyə, seçkilərə təsiretmə mexanizmlərinin hazırlanmasına nail olmağa çalışır.

Xarici ölkələrdə məskunlaşmış həmvətənlərimiz bir çox problemlərlə üzləşir: sosial, dil, leqallaşma, iş və s. Bu çətinliklər

---

[23] Erməni xəyanəti: terror, soyqırım və deportasiya siyasəti / - Bakı: Avropa nəşriyyatı servis MMC, - 2009. – 175 s.

azərbaycanlıların yaşadıqları ölkənin cəmiyyətinə daha sürətlə inteqrasiya olunmasını ləngidir və Azərbaycan diasporunun ictimai-siyasi həyata təsir imkanlarını məhdudlaşdırır.

Azərbaycan diaspor təşkilatları soydaşlarımızın hüquqlarının müdafiəsi istiqamətində zəruri hallarda operativ tədbirlər görmək imkanına malikdirlər. Belə ki, Avropa Azərbaycanlıları Konqresi, Benilüks Azərbaycanlıları Konqresi, İsveç-Azərbaycan Cəmiyyəti və digər qurumların nəzdində azərbaycanlıların hüquqlarının pozulması hallarında həmvətənlərimizə hüquqi yardım göstərən mərkəzlər yaradılmışdır. Bu mərkəzlərin əsas vəzifəsi hüquq pozuntularına məruz qalmış soydaşlarımızın düşdüyü durumu aydınlaşdırmaq, zəruri hallarda onların vəkillə təmin edilməsinə dəstək göstərməkdən ibarətdir.

Dissertasiyanın Nəticə hissəsində aparılmış tədqiqata yekun vurulmuş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilmə ardıcıllığı və başlıca ümumiləşdirmələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Heydər Əliyev və Azərbaycan diasporu // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları.- Bakı, - 2013,- s. 337-339
2. Diaspora quruculuğunda ilkin addımlar. // -Bakı: Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər bölməsi,- 2014. №2,- s. 194-198
3. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı: Tarixi gerçəklər, faktlar. // Uydurma Erməni Soyqırımı: Yalanlar, İftiralar. Türk-Müsəlman Soyqırımı: Faktlar, Həqiqətlər. II Beynəlxalq elmi konfransın materialları.- Bakı,- 2015,- s. 267-271
4. Azərbaycan diasporu – Heydər Əliyev və azərbaycançılıq məfkurəsi // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları.- Bakı,- 2015,- s.. 340-342

5. Erməni təcavüzünün ifşa olunmasında Azərbaycan diasporunun iştirakı // -Bakı: Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal, - 2015. №2,- s. 224-230
6. Ümummilli maraqların müdafiəsində diasporanın əhəmiyyəti //-Bakı: Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal,-2015. №3,- s. 201-206
7. Erməni təcavüzünü dünya ictimaiyyətinə çatdırılması-diasporamızın əsas fəaliyyət istiqamətidir // Azərbaycan Respublikası Təhsil Nazirliyi, BDU, "Kitabi-Dədə Qorqud" və Türk dünyası "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları.- Bakı,-2015,- s. 763-766
8. Azərbaycan diasporunun xaricdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi uğrunda fəaliyyəti // -Bakı: Sivilizasiya. Elmi-nəzəri jurnal,-2015. № 9,- s. 167-175
9. Areas of activity of our diaspora organizations in Russia in the protection of political interests of Azerbaijan Republic //-Киев: Национальный Гілея Науковый висник,- 2015. Выпуск 94 (№3),- с. 104-109
10. Joint activity of Azerbaijani and Turkish Diaspora // -Киев: Национальный Гілея Науковый висник,-2015. Выпуск 102 (№11),- с. 138-143
11. The main activities of the Azerbaijani diaspora in Russia // Центр научных публикаций сборник науцных пуьликаций, Велес. Международная конференция «актуальные проблемы развития мировой науки». Киев,- 2015,- с. 46-49
12. Azərbaycan lobbisinin formalaşması, fəaliyyət istiqamətləri // -Bakı: Pedoqoji Universitet xəbərləri. Humanitar elmlər bölməsi,- 2015. № 1,- s.142-146
13. Azərbaycan Diasporu- Ümummilli maraqlarımızın Beynəlxalq münasibətlər sistemində qorunmasında əsas güc mənbəyidir // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Dini Qurumlarla işÜzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Slavyan Universiteti. "Ulu Öndər Heydər Əliyev İrsində Multikultural və Tolerant Dəyərlər" Beynəlxalq

Elmi Konfransının materialları. I hissə.- Bakı,-2016,-s..245-248

14. ABŞ-da Azərbaycan diasporasının təşəkkülü və fəaliyyəti // - Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası,- 2016. № 2,- s. 248-254
15. Avropada azərbaycanlıların məskunlaşması və diasporamızın təşəkkülü //-Bakı: Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər bölməsi,- 2015. №3,- s. 62-66.
16. Bir millət, iki dövlət - türk diasporunun birgə fəaliyyət istiqamətləri // 2016 Hoca Ahmet Yesevi Yılı Anısına Uluslararası Türk Dünyası Eğitim Bilimleri və Sosyal Bilimler Kongresi Bildirileri. V Cilt. Sosyal Beşeri Bilimler. Ankara,-2016,- s. 125-130.

Dissertasiyanın müdafiəsi 13 may 2022-ci il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkünür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 aprel 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.04.2022

Kağızın formatı: A5

Həcmi: 48951

Tiraj: 100